AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

RİSALƏ

Elmi araşdırmalar jurnalı

1(20)

Bakı – "Elm və təhsil" – 2021

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Elmi Şurasının 12 aprel 2021-ci il tarixli (protokol № 4)
qərarı ilə çap olunur

Baş redaktor:
Rafael Hüseynov,
akademik

Redaksiya heyəti:

Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan
Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan
Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan
Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə
Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ
Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya
Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ
Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya
Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ
Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya
Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası
Şodimaxammad Sufizoda, filologiya üzrə elmlər doktoru, professor,
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan
Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan
Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət
Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan
Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya

Risalə. Elmi araşdırmalar jurnalı. № 1 (20)
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2021, 168 s.

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarı ilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

© AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
© 2021

KLASSİK İRS:
TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

Rafael Hüseynov. Əyyuqinin "Vərqa və Gülşa" məsnəvisinə
Əbdülmömin Məhəmməd Əl-Xoyinin çəkdiyi miniatürlər
Azərbaycan əlyazma kitabında yeni mərhələnin başlanğıcı kimi 7
Faiq Əliyev. Nizaminin ideal sənət dünyası 18
Nazir Əhmədli. Aşıqlıq etməyən qarabağlı Kərbəlayı Səfi Valeh 33
Seyran Qayıbov. "Ərtuğrul" fırkateyni salnaməçisi Əli Ruhinin "Günəş"
qəzetindəki bir qəzəli haqqında 54
Tariyel Qəni. Klassik epik ənənə:
"Kitabi-Dədə Qorqud" və "Dastani-Əhməd Harami" 62
Təranə Rüstəmova. Klassik və müasir alleqorik əsərlərdə
mövzu və süjet bənzərliyi 70

YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

Ayna Əlixanova. Azərbaycandakı dağ yəhudiləri yaradıcılığında
vətən həsrəti mövzusu 81
Ləman Muxtarova. Azərbaycan Cümhuriyyəti Parlamentinin
şair millət vəkili Hacı Kərim Sanılı 86
Nailə Mustafayeva. XX əsr Azərbaycan ədəbiyyatında
müxəmməs janrında yazılmış şeirlərin mövzu dairəsi 94
Nuranə Əsədullayeva. 1920-1930-cu illərdə dramaturgiyada sinfi mübarizənin
ideoloji inikası: qolçomaq obrazı 105
Təbriz Əhədov. XX əsr Azərbaycan poeziyasında Təbriz mövzusu 115
Türkan Məcidova. Azərbaycan poeziyasında ana dilinin saflaşdırılması yolunda
səylər (M.Müşfiq, A.Şaiq, O.Sarıvəlli poeziyası əsasında) 122
Ülviyyə Yusifova. Abdulla Faruqun əsərlərində qadın azadlığı problemi 131

TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ

Rafael Hüseynov. Features of the Azerbaijani carpet language and dialects in the
context of the carpet language and traditions of the Muslim East 141
İnarə Səfiyeva. Şəxsi möhürlərdə həkk olunmuş adlar 156

UOT 821.512.162

Tariyel QƏNİ
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Universiteti
qenitariel@mail.ru

KLASSİK EPİK ƏNƏNƏ: "KİTABİ-DƏDƏ QORQUD" VƏ "DASTANİ-ƏHMƏD HARAMİ"

Açar sözlər: "Kitabi-Dədə Qorqud", "Dastani-Əhməd Harami", epik ənənə, epos, mədəni qəhrəman, arxaik epik ənənə, epik coğrafiya
Keywords: "Kitabi-Dada Gorgud", "Dastani-Ahmad Harami", epic tradition, epic, cultural hero, archaic epic tradition, epic geography
Ключевые слова: «Китаби-Дада Горгуд», «Дастани-Ахмад Харами», эпическая традиция, эпос, культурный герой, архаическая эпическая традиция, эпическая география

Giriş. Azərbaycan xalqının zəngin ədəbiyyat xəzinəsində hər bir bədii örnəyin öz yeri və məqamı vardır. Zamanından, məkanından asılı olmayaraq ehtiva etdiyi məzmun və həyatı əksetdirmə funksiyası ilə diqqət önünə gələn bu nümunələr tarixi-mədəni prosesin ləngərli axarına işıq tutur, bədii-estetik funksiyası ilə əsaslı fakturaya yüklənir. Şifahi yaddaşdan süzülüb gələn ədəbiyyat nümunələri, eləcə də yazı mühitində ortaya çıxmış əsrarəngiz abidələr etnomədəni düşüncəni ifadə etmək gücü ilə tarixə yoldaşlıq edir. "Kitabi-Dədə Qorqud", "Dastani-Əhməd Harami" bunun əvəzsiz örnəyidir. Elm aləminə məlum olduğu vaxtdan müxtəlif ədəbiyyat adamları tərəfindən yazılır, yozulur, ancaq yenə də sözə ehtiyac doğurur. Çünki həmin nümunələrin mahiyyətində özünü göstərən hadisə və əhvalatlar milli olduğu qədər bəşəri, bəşəri olduğu qədər də milli olanı əksetdirməyə köklənmişdir.

Dilçilər, ədəbiyyatşünaslar, etnoqraflar, folklorşünaslar, tarixçilər, musiqişünaslar və başqaları "Kitabi-Dədə Qorqud" ətrafında iki yüz ildən çoxdur ki, təhlillər aparır, mətnində olan simvol və ifadələrin məzmun qatlarını, hadisə və epizodların ehtiva etdiyi mahiyyəti, toplum təsəvvürlərini, cəmiyyət nizamını, etnik mədəniyyəti aydınlaşdırmaq yolunu tutur. Digər kontekstdə bunlar tipoloji araşdırmalar üçün əsas olmaqla, həm də tarixi-mədəni axarı, bədii düşüncənin sonrakı çağlardakı mənzərəsini açıqlamağa şərait yaradır. "Kitabi-Dədə Qorqud" və "Dastani-Əhməd Harami" bütün müstəvilərdə – dil və düşüncə, üslub, forma və məzmun, etnomədəni yaddaşı əhatələmək baxımından daha əsaslı material verə bilmək gücündədir.

Epik təhkiyənin tarixi mənzərəsi. "Dastani-Əhməd Harami"nin dil, üslub və təfəkkür intelleksiyası "Kitabi-Dədə Qorqud"a və Nizami Gəncəvinin "Xəmsə"sinə bağlanır. Bu iki xətt bütövlükdə sonrakı çağ türk xalqları səviyyəsində epik axarın ana qaynağını müəyyənləşdirir. Genotip olaraq hər iki şedevr ("Kitabi-Dədə Qorqud" və "Xəmsə") bütün parametrlərdə sonrakı zaman kəsikləri üçün bir meyar olaraq özünü göstərir. "Oğuz Kağan", "Ərgənəkon", "Alp Ər Tonqa", "Manas", "Alpamış", "Bilqamıs", "Boz Qurd", "Köç", "Törəyiş", "Kitabi-Dədə Qorqud" və s. kimi epos təfəkküründə olan müəyyənləşmiş polifonik yaddaş qatı etnik sistem səviyyəsində Nizaminin epik təfəkküründə yeni sferaya daxil olur. "Xəmsə"nin müəyyənləşdirdiyi genotip Ümumşərq anlamında bir düşüncə hadisəsi olaraq özündənsonrakı axarın fərqli istiqamətinə bağlanır. Mərkəzi Asiya və Kiçik Asiya səviyyəsində gedən tarixi-mədəni

proses epik təfəkkürdə Nizami düşüncəsində olanlarla daha dərin qatları ortaya qoymaq və qoya bilmək gücü ilə meydana çıxır" [1]. Zəngin epik ənənənin orta əsrlər bədii düşüncəsində sərgilədiyi təsəvvür Qul Əlinin "Qisseyi-Yusif", Suli Fəqihin və Mustafa Zəririn "Yusif və Züleyxa", A.Ərdəbilinin "Fərhadnamə", Ə.Təbrizinin "Mehr və Müştəri" poemaları ilə mövzu və mündəricə timsalında zənginləşmə prosesi keçir.

Türk epos təfəkkürü özündə mifdən və daha əski dönəmlərin təsəvvüründə olanlardan üzü bəri nə varsa hamısını özündə qoruya bilmək və gələcəyə əvəzsiz nəsnə kimi daşımaq funksiyasına köklənir. "Kitabi-Dədə Qorqud" dastanlarının sintaqmatik, paradiqmatik və janr səviyyəsində olanların yazılı mühitdə məsnəvi adı ilə vurğu-ladığımız və müəlliflərinin əsərlərində dastan adı ilə qeyd etdikləri bütün örnəklərdə bu, özünü bir xətt olaraq göstərir. Çox doğru olaraq vurğulayırlar ki, "heç bir xalqın qəhrəmanlıq dastanında onun tarixi Azərbaycanın müəyyən dövr tarixinin "Dədə Qorqud kitabı"nda verildiyi qədər canlı, mötəbər və dəqiq əks olunmur. Beləliklə, bu tarix nəsildən-nəslə yazılı şəkildə ötürüldüyü, bizə kitab kimi gəldiyi üçün haqqımız var deyək ki, Dədə Qorqud qəhrəmanlıq dastanı tariximizin yazılı dərsliyidir, ilk dərsliyidir.

Bu dərslik millətimizin tarixi-etnoqrafik damğası və ailə-əxlaq məcəlləsi sayılır" [6, s.3]. "Kitabi-Dədə Qorqud" millətin tarixi-etnoqrafik damğası, yazılı dərsliyi, ailə-əxlaq məcəlləsi olmaqla bərabər, həm də bədii düşüncəmizin özgürlük kodudur. Toplumu ifadə baxımından dünya ədəbiyyatında heç bir ədəbi abidə onunla ayaqlaşa bilmək səviyyəsində deyildir. Bütün bunların timsalında dastan epik təhkiyə kontekstində zəngin faktura ilə diqqət önünə gəlir. Məsələn, "Kitabi-Dədə Qorqud"da özünü göstərən formullar, təhkiyə üsulları, hadisələrin axarında özünü göstərən təqdim və təsvir modelləri bu və ya digər şəkildə "Dastani-Əhməd Harami"də təkrarlanır. Müqəddimə, on iki boy formasında sıralanan "Kitabi-Dədə Qorqud"la başlanğıc, altı məclis şəklində olan "Dastani-Əhməd Harami" arasında bağlantılar etnik şüur kodu olaraq faktlaşır. *"Bu gün bu dastanı bünyad edəlim, haqqın qüdrətlərin bir yad edəlim"* [4, s.14] başlanğıcı ilə N.Gəncəvinin *"Köhnə dastanların qoca ustadı öz hekayətinə belə başladı"* [5, s.97] formulu təhkiyənin sərgilədiyi məzmun anlamında "Rəsul əleyhüssəlam zamanına yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu" özlüyündə bir ənənəni, qəlibləşmiş təhkiyə sistemini diqqət önünə gətirir. Bütün bunları nəzərə alaraq N.Gəncəvi timsalında çox doğru olaraq vurğulayırlar ki, "onun şeiri, həm özü yaratdığı yeni janr (eşq əfsanəsi), həm bu janr ilə tam ahəngdə olan məzmun və məna (ruhi təhlil), həm özünəməxsus kəskin ifadəli (rəmzli) dili, həm heç bir şeyi gözdən qaçırmayan qavrayışlı görüş (qüdrətli təsvir), həm yüksəklərdə uçan geniş təxəyyüllü parlaq obraz və təşbehlər, həm də təsadüfə yer vermədən hər şeyi dəqiqləşdirib anladan və tək bir kökə bağlayan qavrayışlı fəlsəfə (vəhdəti-vücud nəzəriyyəsi) ilə eni-boyu ölçülməyən ucaman bir əsərdir. Bu əsərdə bizi özünə cəlb edən amil şair Nizaminin yanında eyni gözəllik, qüdrət və mətinliklə bərabər yeriyən filosof Nizamidir" [8, s.29]. Qavrayışlı dərk və obrazlı təqdimlə etnokulturoloji yaddaşı canlandıran epik təhkiyənin birdən-birə meydana gəlməsi mümkünsüzdü və tarixi-mədəni proses ozan söyləmələrində, məclis ədəb-ərkanında bir müdriklik institutunun formalaşmasını diqqət önünə gətirir.

Anadilli ədəbiyyatın "Dastani-Əhməd Harami"yə gələn yolu. Anadilli ədəbiyyatın "Dastani-Əhməd Harami"yə gələn yolu mif, əfsanə, nağıl səviyyəsində zənginləşmələrlə, yeni-yeni tapıntıların əlavəsi ilə səciyyələnir. Müəllifi məlum olmayan bu abidə gözlərimiz önündə XIII əsrin ümumi ədəbi-mədəni mənzərəsi haqqında dolğun təsəvvür formalaşdırmaq gücü ilə diqqət önünə gəlir. Sənətkarın əsərə "dastan" sözünü gətirməsi məqsədli və düşünülmüş səciyyə daşıyır. Əsərin ümumi axarında dastandan gələn təhkiyənin, ifadə üsullarının işləkliyini aşkarlayır. "Dastani-Əhməd Harami"

məsnəvisi dil və üslubca "Kitabi-Dədə Qorqud"a çox yaxındır" [9, s.12]. Zəngin xalq yaradıcılığı ənənələrinə köklənmiş bu poema əhvalat, hadisə, nağıl və s. epik təhkiyəyə bağlanan söyləyicilik üsullarında əvəzsiz dil örnəkləri ilə mükəmməllik qazanır. Bu isə müəllifin yüksək istedada və xalq ruhuna yaxın olması qənaətini diqqət önünə gətirir.

Məgər kim, ol zamanda bir harami,
Dərib döşürmüş idi çox hərami.

Özü gürbüzdürür yəlak bahadır,
Bahadırlıq yolunda key bəhadır.

Bilirdi sehr elmindən bəğayət,
Nücum elmində də qadirdi qayət [4, s.16-17].

Göründüyü kimi, birinci məclisin başlanğıcında sənətkar təqdim elədiyi qəhrəmanın xarakter xüsusiyyətini çatdırmağa üstünlük verməklə haqqında dolğun təsəvvür yaradır. Məsələn, onun bacarıqları sırasında əfsunçuluq, İbn Sina elmi, Şəhabəddin bacarığı, qılınc çalmaqda göstərdiyi məharət bir bütöv olaraq çatdırılma məqsədi daşıyır.

Gər əfsun oxuyub bir gəz ürəydi,
Oluq dəm ayı gögdən endirəydi.

Əli bu Sina elmindən bilirdi,
Şəhabəddinə ol hizmət qılırdı.

Qılınc çalsa bin ərə təpinəydi,
Qağan aslan kibi kim çapınaydı [4, s.17].

Epik təhkiyə sərgilədiyi bütün parametrlərdə tarixi-mədəni axarın müəyyənləşdirdiyi ifadə üsullarına, obraz yaratma prinsiplərinə əsaslanmaqla həm də ona sədaqətlilik nümayiş etdirmişdir. Bütün bunların qaynağı isə xalq təfəkküründən gələnlər olub yazı mühitində rəngarəngliklərlə, uğurlu əlavələrlə özünə yer almışdır. Məsələn, "Qazan xanın evinin yağmalandığı boyu bəyan edər"də Qazan xanın təqdimi timsalında klassik bir nümunəni görürük. "Bir gün ulaş oğlu, Tulu quşun yavrusu, bizə miskin umudu, ümmət soyunun aslanı, Qaracuğun qaplanı, qonur atın əyası, Bayındır xanın göygüsü, Qalın Oğuzun dövləti, qalmış yigidin arxası Salur Qazan yerindən durdu" [7, s.31]. Qəhrəmanı təqdim üsullarının özünəməxsusluğu, nəsil, şəcərə, mühit təsəvvürü baxımından son dərəcə tipikliklə müəyyənləşən epos təsəvvürü bunu bütünlükdə dastan boyu göstərməklə diqqəti cəlb edir. Məsələn, bu xüsusiyyət təkcə Qazan xanı təqdimdə özünü göstərmir, Qazan xanın qardaşı Qaragünənin, Qıyan Səlcuq oğlu Dəlu Dondarın, Qaragünə oğlu Qarabudağın, Qəflət Qoca oğlu Şirşəmsəddinin, Boz ayğırlı Beyrəyin, Qazan bəyin dayısı at ağızlı Aruz Qocanın da xarakter-keyfiyyətləri və formalaşdırdığı igidlik təsəvvürünə görə sadalanmalarda faktlaşır. Bir növ, Oğuz eli öz igidlərini bu təsəvvürlərlə rəsmləşdirmişdir. "Qaradərə ağzında qadir verən, qara buğa dərisindən beşiyinin yapığı olan, acığı tutanda qara daşı kül eləyən, bığını ənsəsində yeddi yerdə düyən, ərənlər əvrəni Qazan bəyin qardaşı Qaragünə" və yaxud da aydınlıq üçün bir nümunəyə də diqqət yetirək: "Dəmir Qapu Dərbənddəki dəmir qapığı təpib alan, altmış

tutam göndərinin ucunda ər böyürdən (Qazan kimi pəhləvanı üç gəz atından yıxan Qıyan Səlcuq olğu Dəli Dondar" [7, s.42]. Göründüyü kimi, epik ənənə bütün məqamlarda təfsilatı, qəhrəmanı elat yaddaşında olanlarla təqdimi həmişə əsas kimi diqqət önünə gətirir. Epos mühitində bu, bir deyim və təqdim modeli olaraq qəlibləşmişdir. "Dastani-Əhməd Harami"də Əhməd Haraminin, Güləndamın, Güləfruxun da təqdimi bu səciyyəlidir. Yazılı mühitdə onu da əlavə edək ki, bu, təkcə "Dastani-Əhməd Harami" ilə məhdudlaşmır, "Xəmsə"də, "Fərhadnamə"də, "Mehr və Müştəri"də, "Bəxtiyarnamə"də, "Vərqa və Gülşa"da və s. nümunələrdə bir üslub, etnosun özünüifadə modeli olaraq diqqət önünə gəlir.

"Dastani-Əhməd Harami" anadilli ədəbiyyatımızın ilk yazılı örnəklərindən biri kimi mühüm möhtəşəmlik təsəvvürü formalaşdırır. Onun əhatələdiyi məzmun, bədii-estetik dərkin rəngarəng təqdim üsulları, sadə xalq dilinin əsrarəngiz gözəllikləri, əsərin axarında dalğalandırdığı avazlanma müəllifin yüksək yaradıcı təbini və ruhunu, varlığı etibarilə etnik mədəniyyətə bələdliyini aydınlaşdırır. Məsələn, "gələlim biz haramilər sözünə, biləsiz anların fikri, sözü nə?", eləcə də "gövhər, inci, əqiq, ləli-Bədəxşan, qızıl, altun, cəvahir, dürrü mərcan" [4, s.22].

Dünya xalqlarının ədəbi-nəzəri düşüncəsində folklor və yazılı ədəbiyyat məsələsi ən önəmli məsələ kimi təhlillərin ana axarlarından birini təşkil edir. Azərbaycan folklorşünaslığında da bu kontekstdə lazımi qədər ciddi təhlillər aparılmışdır. "Dastani-Əhməd Harami" ilə bağlı aparılan təhlillərin də qaynağında, demək olar, bir istiqamət kimi folklor xüsusi üstünlük təşkil edir. Çünki əbədiyaşarlıq qazanmış bütün ədəbiyyat örnəklərinin əsasında xalqın zəngin yaradıcılıq xəzinəsi dayanır. Müəllifi məlum olmayan bu möhtəşəm abidənin də ruhunu bir xətt olaraq xalq yaradıcılığından yararlanma təşkil edir. Əsərin adından sonluğuna qədər folklordan gələn elementlər, ifadə üsulları, sintaktik fiqurlar, əfsanə və rəvayət motivləri, atalar sözü və məsəllər və s. hamısı əsərə əlavə ovqat qatmışdır. "Poemada xalqımızın adət-ənənələrinin, əxlaq və məişət məsələlərinin, həyat tərzinin təsvirinə aid maraqlı məqamlar da vardır. Burada davul, nay, şeştə, qopuz, nağara, tənbur, dünbür, ud və s. musiqi alətlərindən, "Hicazi", "Dühəng", "İsfahani", "İraqi", "Cəngi", "Şahnaz", "Hüseyni", "Nühəfti", "Novruz" və b. musiqi havacatlarından söhbət açılır. Dənə, pirinc, zərdə, gərəkcə, qəlyə, boranı, hərisə, əriştə və s. yeməklərin, bəzi qab-qacaq və məişət alətlərinin adları çəkilir. Güləfruxun toy məclisi təsvir olunur" [3, s.57-58]. Bütün bunlar XIII əsrin həyat tərzi, məişəti, adət-ənənəsi, yaşam mənzərəsi və s. haqqında son dərəcə dolğun təsəvvür yaratmaq amalına köklənir. Ümumiyyətlə, epik ənənə xalq ədəbiyyatından gələnlər üzərində işini nizamlamaqla ölməz abidələrin yaranması amalına köklənir. Demək olar, əlimizdə olan bütün nümunələrin mövzusu, ideyası xalq yaddaşında yaşarılıq qazanmış hadisə, əhvalat və hekayətlərə bağlanır. "Kitabi-Dədə Qorqud" və "Dastani-Əhməd Harami" timsalında aparılan təhlillər epik ənənənin dönməzliyini, artan istiqamətdə prosesin gedişinin spesifikasını faktlaşdırır. Xalqın zəngin bədii düşüncəsində bu tip örnəklər ibrətamiz mahiyyəti ilə həmişə diqqəti cəlb etmiş və yazılı ədəbiyyatda ayrı-ayrı zaman kəsiklərində mövzuya çevrilmişdir. "Dastani-Əhməd Harami"də ifadəsini tapan şər (Əhməd Haraminin əməlləri) və xeyir (Güləndam) ədalətin bərqərar olması timsalında tipikdir və "haqq nazilər, ancaq üzülməz" məsələnə bağlanır və onun timsalında olanları ortaya qoyur.

Nə kim etmişdi, indi Tanrı verdi,
Güləndamı muradına irirdi.

Kişi yavuz işə etsə bünyad,
Son ucun ondan alır haqqın ustad [4, s. 81].

Güləndam obrazı xarakter xüsusiyyətləri, igidliyi, ağlı, zəkası, qabiliyyəti, təmkini və s. keyfiyyətləri ilə türk xalqlarının tarixində özünə yer almış qəhrəman qadınlarla bir səviyyədə duracaq ucalıqda görünür. "Kitabi-Dədə Qorqud"da Burla xatun, Banuçiçək, Xan qızı, Selcan xatun, "Tomris"də Tomris, "Koroğlu" dastanında Nigar xanım, "Şah İsmayıl"da Ərəbzəngi, "Qaçaq Nəbi"də Həcər xanım və digər onlarla, yüzlərlə tarixin ayrı-ayrı səhifələrinə səpələnmiş qadınlar xalqın qəhrəmanlıq təsəvvürlərini özündə əks etdirmək məramı ilə geniş bir mənzərəni diqqət önünə gətirir. Məsələn, "Baybura oğlu Bamsı Beyrək boyu"nda Beyrəklə Banıçiçəyin qarşılaşması tarixi gələnəyə bağlanır.

"Qız aydır:

– Ol qız elə adam deyildir ki, sənə görünə, – dedi. – Amma mən Banıçiçəyin dadısıyam. Gəl imdi sənlə ava çıxalım. Əgər sənin atın mənim atımı keçərsə, onun atını da keçərsən. Həm sənlə ox atalım, məni keçərsən, onu da keçərsən və həm sənlə güləşəlim, məni basarsan, onu da basarsan, – dedi.

Beyrək aydır:

– Xoş, imdi atlanın!

İkisi atlandılar, meydana çıxdılar; at təpdilər. Beyrəyin atı qızın atını keçdi. Ox atdılar. Beyrək qızın oxunu yardı" [7, s.50]. Tipoloji yanaşmalar bir toplum olaraq etnosun arxaik təsəvvüründə olanların intertekstuallıq və paratekstuallıq səviyyəsində təhlilini zəruriləşdirir. Göründüyü kimi, "Kitabi-Dədə Qorqud" və "Dastani-Əhməd Harami" arasında aparılan müqayisələr etnokosmosun bir qutsal düşüncə modeli olaraq aparıcı xətti təşkil etdiyini və müxtəlif zaman kəsiklərində təkrarlandığını diqqət önünə gətirir. Burada ən incə detallar, elat həyat tərzinin xarakterik xüsusiyyətləri, törə və qutsallıqları, cəmiyyət nizamı sosial düzəni şərtləndirən müqəddəs nizam bir tabu səviyyəsində qorunmaqla, həm də ötürücülük missiyasına köklənir. Baba//ata//oğul timsalında baş verənlər, məsələn, Qazan xan//Uruz, Baybura//Bamsı Beyrək, Qanlı Qoca Qanturalı və s. timsalında tipikləşir və sınanmış bir gələnək olaraq qorunur.

Nəticə. Epik ənənə kontekstində "Kitabi-Dədə Qorqud" və Dastani-Əhməd Harami" üzərində aparılan təhlillər etnosun bədii-estetik mədəniyyəti timsalında yüksək təfəkkür intelleksiyasını diqqət önünə gətirir. Mətn fakturasında görünənlər bir isitqamətdə məzmun xətləri ilə diqqət çəkirsə, digər baxımdan struktur anlamında mükəmməlliyə bağlanır. Nümunələrdə özünü göstərən formullar (başlanğıc formulları, keçid formulları, sonluq formulları), dil və üslub zənginlikləri, yaratdığı bədii-estetik mühit, sözün məqamına və yerinə görə əhatələdiyi çalarlar bütün aspektləri ilə bədii nümunənin uğurluluğunu təmin edir. Əsər boyu sıralanan epizod və hadisələr, xarakter rəngarəngliyi, əhvalatların ümumi axarı və sənətkar qeydləri bir bütöv olaraq toplumun düşüncəsini təqdimə bağlayır. Bütünlükdə bunlar epik mühitin rəngarənglik və zənginlik səviyyəsində mahiyyətində olanları diqqət önünə gətirir və prosesin tarixi-mədəni mənzərəsi haqqında dolğun təsəvvür formalaşdırır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Allahmanlı M. Bəşəri ideallar şairi Nizami Gəncəvi. “Kredo” qəzeti. 2021, №19(1049), 26 may
2. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I c., Bakı: “Elm”, 1960, 590 s.
3. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı: “Elm və təhsil”, 2014, 760 s.
4. Dastani-Əhməd Harami. Bakı: “Gənclik”, 1978, 94 s.
5. Gəncəvi N. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. IV c., Bakı: “Elm”, 1985, 640 s.
6. Hacıyev T. “Dədə Qorqud kitabı”: tariximizin ilk yazılı dərsliyi. Bakı: “Elm və təhsil”, 2014, 344 s.
7. “Kitabi-Dədə Qorqud”. Bakı: “Gənclik”, 1978, 182 s.
8. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991, 232 s.
9. Səfərli Ə. Ön söz. Dastani-Əhməd Harami. Bakı: “Gənclik”, 1978, 94 s.

Tariyel GANI

CLASSICAL EPIC TRADITION: "KITABI-DADA GORGUD" AND "DASTANI-AHMED HARAMI"

S u m m a r y

In the analysis of the classical epic tradition, "Kitabi-Dada Gorgud" and "Dastani-Ahmad Harami" are characterized by exceptional possibility. In the context of oral and written literature, their typological analysis provides enough material to clarify the general picture of the historical and cultural process and to form a full picture. The rich cultural fund of the Turkic peoples, as well as the general picture of this process in the peoples of the world, creates ample opportunities to clarify the essence in all its aspects. The magnificent monuments such as “Yaradılısh”, “Alp-Ar Tonga”, “Boz gurd”, “Torayish”, “Koch”, “Oghuz Kaghan”, “Jorabatir”, “Edige”, “Manas”, “Alpamısh”, “Koblandibatir”, “Boz yigit”, “Uralbatir” etc. also served as a source for written literature in the historical and cultural context. "Bilgamis", "Mahabharata", "Iliad", "Odyssey", "Beowulf", "Siegfried", "Edda", "The Epic of Kukhulin", "Tristan and Isolde", "Koroghlu" and others among the irreplaceable examples of world literature is an exceptional source for revealing the irreversibility of the epic tradition and the wonder of the human intellect. In the example of "Kitabi-Dada Gorgud" and "Dastani-Ahmad Harami", the course of the process, the power to reflect from the initial imagination to the present day, the genealogy of the flow from oral memory to the writing environment come to the fore as a whole. Artistic thinking, which encompasses an infinity in itself, factualizes the specificity of individual inquiry (appendices) in the writing environment. Thanks to them, human civilization has drawn the formula of life for centuries. In the epic tradition, each sound, word, sentence, and episode creates conditions for systematic analysis, leaving it to the future reader, the learner, to think about what it contains and what it contains.

Тариель ГАНИ

КЛАССИЧЕСКАЯ ЭПИЧЕСКАЯ ТРАДИЦИЯ: «КИТАБИ-ДЕДЕ ГОРГУД» И «ДАСТАНИ-АХМЕД ХАРАМИ»

Р е з ю м е

При анализе классической эпической традиции «Китаби-Деде Горгуд» и «Дастани-Ахмад Харами» характеризуются исключительной вероятностью. В контексте устной и письменной литературы их типологический анализ дает достаточно материала, чтобы прояснить общую картину историко-культурного процесса и сформировать полную картину. Богатый культурный фонд тюркских народов, а также общая картина этого процесса у народов мира создают широкие возможности для выяснения сути во всех ее аспектах. Великолепные памятники, такие как «Ярадылыш», «Алп-Ар Тонга», «Боз гурд», «Тораиш», «Коч», «Огуз

Каган», «Джорабатир», «Едиге», «Манас», «Алпамыш», «Кобландибатир», «Боз йигит», «Уралбатир» и др. также являются источником письменной литературы в историко-культурном контексте. «Бильгамис», «Махабхарата», «Илиада», «Одиссея», «Беовульф», «Зигфрид», «Эдда», «Эпос о Кухулине», «Тристан и Изольда», «Короглу» и другие среди незаменимых примеров мировой литературы – исключительный источник для раскрытия необратимости эпической традиции и чуда человеческого разума. В примере «Китаби-Деде Горгуд» и «Дастани-Ахмад Харами», ход процесса, способность отражать события от первоначального воображения до наших дней, генеалогия потока от устной памяти к среде письма приходят на передний план в целом. Художественное мышление, заключающее в себе бесконечность, фактуализирует специфику индивидуального исследования (приложений) в среде письма. Благодаря им человеческая цивилизация веками создавала формулу жизни. В эпической традиции каждый звук, слово, предложение и эпизод создают условия для систематического анализа, предоставляя будущему читателю, учащемуся думать о том, что он содержит.

UOT - 821.09

Təranə RÜSTƏMOVA
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
aykarustemli@mail.ru

KLASSİK VƏ MÜASİR ALLEQORİK ƏSƏRLƏRDƏ MÖVZU VƏ SÜJET BƏNZƏRLİYİ

Açar sözlər: Şərq, alleqoriya, təmsil, quşlar, ağaclar, güllər, meyvələr
Key words: East, allegory, fable, birds, trees, flowers, fruits
Ключевые слова: Восток, аллегория, басня, птицы, деревья, цветы, фрукты

Giriş. Alleqorik təsvir təmsildə geniş istifadə olunan bədii ifadə üsuludur. Təmsil üçün alleqoriya başlıca şərtdir, daha dəqiq desək, alleqoriya təmsildə özül rolunu oynayır. Qeyd edək ki, alleqoriya janrın özü deyil, təsvir üsulu, ifadə vasitəsi olub, hər hansı bir mücərrəd fikrin, anlayışın konkret predmet, yaxud hadisənin köməyi ilə təsvir edilməsidir. Alleqorik bədii detal insanı təkcə düşündürmür, eyni zamanda onu tərbiyə edir, xarakterinin formalaşmasına təsir göstərir.

Bəzən təmsillə alleqoriyanı tamamilə eyniləşdirir, bu növdən danışarkən onun adını "təmsil-alleqoriya", yaxud "alleqoriya-təmsil" kimi qeyd edirlər [7, s.17]. Əslində bu fikir bir qədər düzgün səslənmir. Cünki təmsillərin əsasını alleqoriya təşkil etsə də, bütün alleqorik mövzuda yazılan əsərlər təmsil hesab olunmur. Belə ki, alleqorik ünsürlərə təkcə təmsillərdə yox, şifahi və yazılı ədəbiyyatın müxtəlif ədəbi növlərində də rast gəlinir. Məsələn, heyvanlar haqqında olan "Tülkü ilə qurd", "Tülkü ilə canavar" və s. alleqorik nağılları, Məhəmməd Füzulinin ədəbiyyat tariximizə müəyyən mənada alleqorik poema kimi daxil olan "Bəngü-Badə", "Yeddi cam" əsərləri həm forma, həm də məzmunca təmsil hesab edilə bilməz.

X.Şirvaninin yaradıcılığında alleqoriya. XII əsr klassik Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi, ilk poema müəllifi kimi tanınan Əfzələddin Xaqani Şirvani (1126-1199) Yaxın və Orta Şərq İntibah dövrü ədəbiyyatında çoxəsrlik qəsidə janrının görkəmli nümayəndəsidir. Dövrünün elmlərinə dərindən bələd olan Xaqani əsərlərinin, demək olar ki, hər misrasında, hər beytində yüksək sənətkarlıqla poeziya dilində obrazlılıq yaradaraq incə bir eyhamla, simvolların köməyi ilə sənətkar və mühit arasındakı ziddiyyətləri açıb göstərə bilmişdir.

Qeyd edək ki, Xaqani Şirvaninin əsərlərində alleqorik ifadə üsuluna, təmsilin ilk nümunələrinə rast gəlmək olur. Bu, bir tərəfdən şairin qarşılaşdığı haqsızlıqlarla barışmazlığı ilə bağlıdırsa, digər tərəfdən, onun bəşəri düşüncələrindən irəli gəlir. Belə ki, üstüörtülü şəkildə sosial-ictimai məsələlərə toxunan Xaqani "Təmsil"də eşşəyin timsalında heyvanı şəxsləndirərək maraqlı, didaktik əhəmiyyətə malik əhvalatı qələmə almışdır. Burada şairin kor əcəmə xitabən gözəl haqqında düşüncələri mənzum hekayə şəklində verilir:

Kufəli bir gözəl kor bir əcəmlə
Oturub eşqdən edirdi söhbət.
Dedim həmin kora: − Aldanma qıza,
O sənin puluna salmış məhəbbət.
Axmaqlıq ucundan aldanma ona [14, s.426].